Ədalət.- 2023.- 5 may. S. 4.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV – MÜASİR MƏHKƏMƏ-HÜQUQ SİSTEMİNİN MEMARIDIR



*Gülnar Babazadə,*
*Bakı şəhəri Yasamal*
*Rayon Məhkəməsinin hakimi*

**Bəşəriyyətin yaşanmış tarixi erası dünyaya xeyli məşhur şəxsiyyətlər bəxş etmişdir. Lakin onların arasında özündə məşhur siyasətçi, təkrarsız ictimai və dövlət xadimi, dünyanın nadir şəxsiyyətlərindən biri, mahir diplomat, tədbirli strateq, böyük iqtisadi layihələrin memarı, mədəniyyətin və iqtisadiyyatın ən qayğıkeş hamisi kimi məvhumları birlikdə ehtiva edən şəxsiyyət demək olar ki, olmamışdır və yoxdur. Bu şəxsiyyət məhz Azərbaycan xalqının sıravi bir vətəndaşından onun ümummilli lideri səviyyəsinədək yüksəlmiş Heydər Əliyevdir.**

Heydər Əliyevin müasir tarixdə əvəzsiz xidmətlərini, zəngin və çoxşahəli irsini göstərmək istiqamətində indiyədək çoxlu kitablar yazılmış, minlərlə məqalələr işıq üzü görmüş, sənədli kino-filmlər çəkilmişdir. Lakin bununla onun əzəmətini, gördüyü işlərin miqyasını tam əhatə etmək, bu siyasət korifeyinin şəxsiyyətinin çalarlarını tam öyrənmək mümkün deyildlr. Çünki Heydər Əliyev tarixin elə nadir şəxsiyyətlərindəndir ki, bir zaman çərçivəsinə sığmır. Hələ illər lazımdır ki, bu düha öyrənilsin.

Görkəmli Çin filosoflarından birinin belə bir sözü var: - "Şəxsiyyət xalqın məşəlidir, onsuz irəli yol yoxdur, toplumlar görə bilməz. Onlar səma adamlarıdır, yerə müəyyən missiya üçün göndərilmişlər".

Qürur hissi duyuruq ki, xalqımız üçün xilaskarlıq missiyası rolunu oynamış Heydər Əliyev belə şəxsiyyətlərin fövqündə dayanır. Çünki, məhz Heydər Əliyev müstəqil Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən, qan-qadadan çıxardı, quruculuq və xilaskarlıq missiyasını yeni zaman müstəvisində davam etdirərək müstəqil Azərbaycan dövlətinin memarı oldu...

Corc Vaşinqton ABŞ dövlətini, Atatürk Osmanlı imperiyasının qalıqları üzərində Türkiyə Cümhuriyyətini qurduğu kimi, Heydər Əliyev də demokratik əsaslarla bugünkü Azərbaycan dövlətini qurubdur. Fərq isə ondan ibarətdir ki, heç bir tarixi dövrdə dünya bugünkü səviyyədə qloballaşmamışdı. Onun nəticəsində Azərbaycana uzanan, görünən və görünməz əlləri saymaq çox çətindir. Heydər Əliyev son dərəcə ağır şəraitdə Azərbaycanın əldə etdiyi müstəqillikdən istifadə edərək demokratik dövlət qurumunu və öz şah əsərini - müstəqil respublikamızın ilk Konstitusiyasını yaratmışdır. Beləliklə də ölkəmizdə müasir dövlət quruculuğunun həyata keçirilməsinin, bəşəri-demokratik dəyərlərə uyğun dövlətçilik təsisatları və cəmiyyət modeli formalaşdırılmasının hüquqi əsasları yarandıqdan sonra Azərbaycanın müstəqilliyi möhkəmləndirildi, əbədi və dönməz xarakter aldı. Burada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunur, insan hüquq və azadlıqlarının müdafiəsi isə dövlət siyasətinin əsas istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilir. Konstitusiyada bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi qəbul edilmiş qanunlarda daha da inkişaf etdirilərək öz real təminatını tapmış və məhkəmə hakimiyyətinin müstəqilliyinə hüquqi zəmin yaratmışdır. Bu sahədə qəbul olunmuş qanunlar isə yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək, məhkəmə və hakimlərin müstəqilliyinin təmin edilməsinə, hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminatın verilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəlmiş oldu. Konstitusiyada həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi, onları gözləmək və qorumaq isə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu olması təsbit edilib.

Ulu öndər Heydər Əliyevin 1998-ci ilin fevral ayının 22-də imzaladığı "İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 678 saylı fərmanı sözügedən sahədə kompleks tədbirlərin həyata keçirilməsinə təkan verdi. 2000-ci ilin sentyabr ayında isə Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlayır. Bu sistemin üstünlüyü ondan ibarətdir ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə, həmçinin, məhkəmə qərarlarından şikayət vermək hüququ təmin edilir, işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra onların hüquqa və fakta görə apellyasiya qaydasında yoxlanılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yenidən baxılmasına imkan verilir. Bu isə öz növbəsində birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həll edilməsinə zəmin yaradır. 1995-2003-cü illər Konstitusiyada təsbit olunmuş hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi formalaşmış, icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Ölkəmizdə müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin, kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün yaradılmış şərait həqiqi memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimizdə siyasi plüralizmin, fikir azadlığının, demokratiyanın bərqərar olduğunu bariz şəkildə təsdiqləyir. Ümummilli liderimiz vicdan və söz azadlıqlarının təmin edilməsini, tolerantlıq mühitinin formalaşmasını əsl vətəndaş cəmiyyətinin formalaşdırılması üçün mühüm amil sayırdı və respublikaya rəhbərliyi dövründə bu amilləri dövlət həyatının ayrılmaz hissəsinə çevirmişdir.

Hüquqi islahatların məntiqi nəticəsi olaraq Azərbaycan Respublikası 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və bu tarixi hadisə respublikamızın beynəlxalq aləmdə demokratik, hüquqi, dünyəvi dövlət kimi tanınmasına səbəb olmuşdur.

Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan qısa müddət ərzində bir çox Avropa Konvensiyalarına qoşulmuşdur. 25 dekabr 2001-ci il tarixdə isə "İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında" Konvensiyasının və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanunu qüvvəyə minmiş, bununla da Azərbaycan Respbulikası insan hüquq və azadlıqlarının qorunması və inkişafı istiqamətində yeni mərhələyə qədəm qoymuşdur. Bu islahatlar sonraki dövrlərdə də ardıcıl olaraq davam etdirilmişdir. Demokratik və hüquqi dövlət quruculuğu prosesi hazırda Ulu öndər Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilişmişdir. Prezident İlham Əliyevin 3 aprel 2019-cu il tarixdə imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanda məhkəmə hakimiyyətinin, məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi-nin, müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik olan ədalət mühakiməsinin formalaşdırılmasının bütün inkişaf istiqamətləri konkret olaraq müəyyən edilmişdir.

Ümummilli liderimiz "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur" - kəlamı ilə bütün dünyaya sübut etdi ki, Azərbaycan kiçik olmasına baxmayaraq, onunla hesablaşmaq lazımdır. Və Azərbaycanı elə bir səviyyəyə qaldırdı ki, dünyanın nəhəng dövlətləri onunla hesablaşmağa məcbur oldular. Odur ki, bu gün Azərbaycan Heydər Əliyevin sayəsində dünyada söz sahibidir. Bu isə o deməkdir ki, Heydər Əliyev Azərbaycanın müstəqillik, ləyaqət və cəsarət simvoludur.

İnsan o vaxt yüksək zirvəyə çatır ki, bütün qüvvəsini qarşıya qoyduğu məqsədin reallaşmasına yönəltsin. İnsan o vaxt ideallaşır ki, xalq yolunda qarşısına qoyduğu məqsədə çatsın. Ümummilli liderimiz nahaq yerə deməmişdir ki, "Mən bütün həyatımı Azərbaycana, xalqa həsr etmişəm!"

Heydər Əliyev dünən də, bu gün də, gələcəkdə də xalqımızın taleyinə xoşbəxtliyin məbədgahı, dövlət, azadlıq, müstəqillik və suverenlik kimi əziz nemətləri milyonlara ərməğan edən müqəddəs bir varlıq, daim nur saçan sönməz işıq olacaqdır.

**Bu gün hər birimiz dahi şəxsiyyət H.Əliyevin ali dövlətçilik ideyalarını yaşatmaq və gələcək nəsillərə ötürmək üçün cənab prezident İlham Əliyevin ətrafında sıx birləşməli və bu yolda üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməliyik.**